Azər.ord
2019.
23 noyabr
S.8

***Qəzənfər Məsimoğlu***

# Təbiət

Mamırlı qayalar çimər yağışda,
Yenə xınalar əlin, təbiət.
Qoruyar ismətin ögey baxışdan,
Duvaqlı, yaşmaqlı gəlin təbiət.

Şimşəklər bağrını doğrayar, kəsər,
Qalmaz şaqqıltıdan bir səs, bir əsər.
Əsər, incə əlli küləklər, əsər,
Daranar qız kimi telin, təbiət.

Buludlar ayrılar doğma tağından,
Al günəş boylanar bəy otağından,
Bəzənər hər tərəf göy qurşağından,
Bağlanar o incə belin, təbiət.

Dərələrdə qıvrım iz açar sellər,
Qırx incə boğazlar, qırx incə bellər,
Oxuyar bülbüllər, oyanar güllər,
Açılar körpətək dilin, təbiət.